**Tağıyeva Tərانə Muradəli**
*tarix elmləri namizədi, dosent*
*Münasibətlər və iqtisadiyyat fakültəsi*
*Bakı Dövlət Universitetinin Beynəlxalq*
**Тагиева Тарана Мурадали**
*кандидат исторических наук, доцент*
*Факультета международных отношений и экономики*
*Бакинский государственный университет*

# ABŞ TƏRƏFİNDƏN İRAQIN İŞĞALINDA LOBBİ QRUPLARININ ROLU

# РОЛЬ ЛОББИ ГРУПП В ИРАКСКОЙ ВОЙНЕ

***Xülasə.*** *Müasir beynəlxalq münasibətlərdə dövlətlərin xarici siyasətində lobbimiz demək olar ki qaçılmaz bir amilə çevrilmişdir. Miqyasında və gücündən asılı olmayaraq hər bir dövlət bu və ya digər xarici siyasət məsələsində maraq və mənafelərindən asılı olaraq lobbi qruplarından istifadə etməyə çalışır.*

*Təqdim olunan mövzuda dünyanın aparıcı dövləti olan ABŞ-nın İraqla müharibəsinin ictimaiyyət üçün açıqlanan rəsmi səbəblərdən deyil, neft lobbisi, onların ABŞ hökumətinə və qanunvericiliyinə təsir mexanizmlərinə, yahudi lobbisinin fəaliyyətinə nəzər yetirilmişdir.*

***Açar sözlər:*** *İraq, ABŞ, beunəlxalq münasibətlər, lobbi, siyasət.*

***Аннотация.*** *Лоббирование во внешней политике современных международных отношений как неизбежный фактор влияния. Независимо от масштаба каждое государство пытается использовать лоббистские группы в зависимости от своих интересов и интересов в той или иной внешней политике.*

***Ключевые слова:*** *Ирак, США, международные отношения, лобби, политика.*

2003-cü ilin mart ayında ABŞ-ın rəhbərliyi altında koalisiya qüvvələri İraqa daxil oldu. Mayın 1- də ABŞ prezidenti Corc Buş döyüşlərin bitdiyini elan etsə də, müharibə uzun illər ərzində davam etdi. Bu müharibə 112–123 mindən çoxu sivil insanlar olan 174 min iraqlının və 4500 amerikalı əsgərin ölümü, yüz minlərlə insanın doğma evlərindən didərgin düşməsi ilə nəticələndi. ABŞ tərəfindən bu müharibənin başlanmasında bir sıra səbəblər qeyd oluna bilər. Müharibənin ictimaiyyət üçün açıqlanan rəsmi səbəbləri kimi İraqın kütləvi qırğın silahlarına malik olması və Səddam Hüseynin Əl-Qaidə ilə əlaqədar olması göstərilsə də, sonradan hər iki faktın əsassız olması ortaya çıxdı (Beyond Iraq, Amitav Acharya and Hiro Katsumata, 2011:68). Məsələnin pərdəarxası tərəfləri arasında isə daha çox iki faktora önəm verilirdi:

1. ABŞ-ın Yaxın Şərq neftindən asılılığının xeyli artması və Səddam Hüseynin ABŞ-ın bölgədəki enerji maraqlarına ciddi maneə törətməsi fonunda İraqın işğal edilməsi

2. ABŞ bölgədəki strateji maraqları və bu maraqlardan ən başlıcası kimi İsrail dövlətinin təhlükəsizliyinin təmin olunması.

Mövzumuz beynəlxalq münasibətlərdə lobbizmin rolu olduğundan birinci halda biz diqqətimizi neft lobbisi və onların ABŞ hökumətinə və qanunvericiliyinə təsir mexanizmlərini, ikinci halda isə yəhudi lobbisinin fəaliyyətinə nəzər yetirəcəyik.

Neft lobbisinin ABŞ siyasətinə təsirinin həcmini ABŞ tarixinə nəzər alsaq ətraflı şəkildə görə bilərik. İstər ABŞ-İran, istər ABŞ-Səudiyyə Ərəbistan, istərsə də ABŞ-İraq münasibətlərinin tənzimlənməsində neft şirkətlərinin böyük rolu olub. Misal üçün ABŞ-ın 1978-ci ildə Səudiyyə Ərəbistana F-15, 1981-ci ildə isə AWACS təyyarələrinin satılmasına nail olmaq üçün böyük neft şirkətləri ABŞ konqresində lobbiçilik etmişlər.

Neftin ABŞ maraqları üçün nə qədər əhəmiyyətli olduğunu sezmək üçün 1980-ci ildə prezident Karter tərəfindən söylənilən və Karter Doktrinası adı ilə tanınan bəyannaməyə nəzər yetirmək kifayətdir. Həmin doktrinaya əsasən ABŞ özünün fars körfəzindəki maraqlarını təmin etmək üçün lazım olarsa hərbi gücdən beləistifadə edə bilər. 1966–68-cı illərdə ABŞ hökumətində milli təhlükəsizlikməsələləri üzrə müşavir çalışan Zbiqnev Brejinski isə qeyd edirdi: “ABŞ-ın Yaxın Şərqdəki neft resurslarını nəzarətdə saxlaması onu digər sənaye ölkələri arasında üstün mövqeyə gətirəcəkdir və ABŞ-ın qərarları onların qərarlarına da təsir göstərəcəkdir. Neftə nəzarət geopolitik nəzarətdir” (Pcrilous Power, Noam Chomsky, Gilbert Achcar, 2007:54).

İraq müharibəsi ərəfəsində neft şirkətlərin ABŞ hökumətinə təsirini daha yaxından anlamaq üçün ilk növbədə həmin dövrün bir sıra iqtisadi göstəricilərinə nəzər yetirmək lazımdır. Məlumdur ki, ABŞ dünyanın ən böyük neft idxal edən ölkələrindən biridir. Dövrün statistik rəqəmlərinə baxsaq görərik ki, 2001-ci ildə ABŞ-in neft istehlakı orta hesabla gündəlik 19.7 milyon barel təşkil edirdi və bnmın 10.8 milyon bareli. yəni 55%-i neftin xarici ölkələrdən idxalından əldəolunurdu. Bu idxalın 26%-dən çox isə Yaxın və Orta Şərq regionunun payına düşürdü. Annual Energy Outlook jurnalının 2004-ci ilə aid məlumatına əsasən ABŞ-da neft istehlakının həcmi 2025-ci ildə 28.3 milyon barelə çatacaq və bu da 44% artım deməkdir. Bütün bu məlumatlar ABŞ-ın neftə olan tələbatının get-gedə artmasını ifadə edir. Və bu artım fonunda yerli istehsaldakı eniş ABŞ hökumətini və neft şirkətlərini birləşməyə vadar edən amillərdən biri idi. Həmin dövrdə Yaxın Şərqdə 112 milyard barel həcmində neft resurslarına malik İraq bu göstəriciyə görə Səudiyyə Ərəbistanından sonra ikinci yerdə gəlirdi (Blood and Oil, Michael Klare, 2004:19). Məhz bu səbəbdən İraq resurlarına yiyələnmək böyük neft şirkətləri üçün strateji hədəfə çevrilmişdi. Lakin ortada bir maneə vardı. Bu maneənin adı Səddam Hüseyn faktoru idi. Səddam Hüseyn hələ körfəz müharibəsindən sonra ABŞ qarşı açıq aşkar düşmənçilik siyasəti ilə seçilirdi. Bunun fonunda ABŞ tərəfindən İraq hökumətinə qarşı müxtəlif sanksiyalar tətbiq edilsə də bu sanksiyalar öz bəhrəsini verməmiş, əksinə Səddam Hüseyni daha da qıcıqlandırmışdı. Buna cavab olaraq 90-cı illərdə o bir neçə dəfə OPEC ölkələrini neft istehsalını azaltmağa çağırmış, öz neftini dollar yerinə evro müqabilində satmağı qərarlaşdırmış, eyni zamanda Çin, Fransa və Rusiya neft şirkətləri ilə müqavilələr bağlamışdı. Sözsüz ki, bütün addımlar ABŞ-ın enerji maraqlarına böyük təhlükə törədirdi.

Özünün 1999-cı ildəki çıxışında o vaxt Hallibörton şirkətinin başçısı, sonradan ABŞ-ın vitse-prezidenti olacaq Dik Çeyni qeyd edirdi: "Dünyanın müxtəlif regionlarında neft əldə etmək imkanları olsa da, dünya neft ehtiyatlarının 2/3-nə malik və ucuz qiymətlərlə neft təklif edən Yaxın və Orta Şərqin dəyəri əvəzolunmazdır. Onu da qeyd etmək lazımdır ki, İraq işğalından dərhal sonra Hallibörton şirkəti İraqda 100 milyard dollarlıq müqavilə imzalamışdı. 2013-cü ilin göstəricilərinə görə şirkətin İraqdakı müqavilələrdən əldə etdiyi ümumi gəlirin miqdarı 39 milyard dollara çatmışdır.

Mövcud problemlərin fonunda 2001-ci ildə ABŞ-da prezident Corc Buş tərəfindən Dik Çeyninin rəhbərliyi altında enerji məsələləri üzrə işçi qrup yaradılır. Bu işçi qrupuna ABŞ-ın yüksək vəzifəli məmurları, o cümlədən dövlət, enerji və ticarət departamentlərindən nümayəndələr daxil idi. Bu işçi qrupunun əsas vəzifəsi ölkənin yeni enerji siyasətini hazırlamaq idi. Burada toxunmalı olduğumuz digər maraqlı məqam isə bu işçi qrupunun görüşlərində dövlət rəsmilərindən əlavə böyük neft şirkətlərinin nümayəndələrinin də iştirak etməsi idi. İşçı qrupun nümayəndəsi olan enerji məsələləri üzrə dövlət katibi Spensen Abraham 2001-ci ilin yanvar-may aylarında arasında nə az, nə çox düz 109 enerji şirkəti nümayəndəsi ilə görüşlər keçirmişdi. Bu şirkətlərin əksəriyyəti o cümlədən, ChevronTexaco, Exxon Mobil və Enron 2000-ci il seçkilərində respublikaçıların seçki kampaniyasına külli miqdarda maliyyə vəsaiti ayırmışdılar. Nəzər yetirmək lazımdır ki, 2002-ci ilin oktyabrın 16-da ABŞ konqresində məhz respublikaçıların böyük əksəriyyətinin lehinə səs verməsi ilə ABŞ-ın iraqa qoşun yeritməsinə rəsmi şəkildə icazə verilir. Waşinqton Post qəzetinə inansaq, hətta BP şirkəti belə işçi qrupun görüşlərində dəfələrlə iştirak etmişdi. Böyük Britaniyanin o zamankı enerji naziri Baroncss Simons bir neçə dəfə BP və Royal Dutch kimi nəhəng şirkətlərin nümayəndələri ilə görüşmüş, onlarla Britaniya şirkətlərinin İraq müharibəsindəki qazanc perspektivlərini müzakirə etmiş və nəticədə BP adından Buş rəhbərlivinə lobbiçilik etməyi öz üzərinə götürmüşdü. İşçı qrup ilkin mərhələdə ölkədə yeni enerji mənbələrinin aşkara çıxarılması ilə təkliflər hazırlasa da, son nəticədə hazırladığı layihə Yaxın və Orta Şərqin neft bazarına yönəlməni və yaxın gələcəkdə İraqı işğal etməni özündə ehtiva edirdi.. İşçi qrupun görüşlərində iştirak edən şirkətlərdən biri də Enron şirkəti idi. Həmin şirkətin rəhbəri Kennet Lay uzun illər Buş ailəsi ilə yaxın dostluq əlaqələrinə malik idi. Enron şirkəti hələ Corc Buş Texas qubernatoru seçilərkən onun kampaniyasına 500.000 dollar, prezidentlik kampaniyasına isə 2 milyard dollara yaxın maliyyə vəsaiti ayırmışdı. Yeri gəlmişkən Corc Buşun özü də bir zamanlar Harken Energy adlı enerji şirkətinin rəhbəri olduğundan digər enerji şirkətlərinin rəhbərləri ilə sıx əlaqəyə malik idi. ABŞ-ın İraq müharibəsində maraqlı olan digər böyük şirkət isə Exxon Mobile idi. Bir fakta nəzər yetirmək lazımdır ki, 2001-ci ildə Exxon Mobile şirkəti American Enterprise İnstitute (Amerikan Müəssisə İnstitutu) adlı Think Tank üçün 230 000 dollar vəsait ayırmışdı. American Enterprise İnsitute rəsmi şəkildə Səddam Hüseynin ABŞ maraqları üçün təhlükə törətdiyini bildirən qurumlardan biri olmuşdu. Bu qurumun digər məşhur üzvü isə sonradan Corc Buşun müdafıə siyasəti şurasının üzvü olacaq Riçard Perl idi. O hələ 2001-ci ilə media vasitəsilə Səddam Hüseynin devrilməsini təbliğ edən şəxslərdən biri idi. Exxon Mobile-dan maliyyə vəsaiti alan digər müharibə tərəfdarı olan qurum isə Heritage Foundation idi. 2001-ci ildə bu qurum Exxon Mobil şirkətindən 65 000 dollarlıq maliyyə vəsaiti əldə etmişdi. Bundan başqa Beynəlxalq və Strateji Araşdırmalar Mərkəzi 135 min dollar, İctimai Siyasət üzrə Sakit Okean Tədqiqat İnstitutu isə 20 000 dollarlıq maliyyə vəsaiti almışdılar. Bu qurumların hamısı ABŞ xarici siyasətinin formalaşmasında rol oynayan think tanklardırlar.

İraq müharibəsi başlanan ilin statistik rəqəmlərinə nəzər yetirsək görərik ki, ABŞ-ın Exxon Mobil şirkəti müxtəlif növ lobbiçilik fəaliyyətlərinə 8 milyon 252 min dollar, Royal Dutch Shell 6 milyon 262 min dollar, Chevron Texaco isə 4 620 min dollar maliyyə vəsaiti xərcləmişdir. Ümumilikdə

götürsək bu vəsaitlərin 90 faizindən çoxu respublikaçıların nümayəndələrinə ayrılmışdır. Misal üçün onu deyə bilərik ki, hal hazırda ABŞ konqresində elm, kosmos və texnologiya komitəsinə rəhbərlik edən Lamar Smit Texasdan olan respublikaçı millət vəkilidir. Lamar Smitin ən böyük donorları müxtəlif enerji şirkətləridir. Sözsüz ki, bu şirkətlər maliyyə dəstəyi müqabilində Smitdən onların müxtəlif tələblərini yerinə yetirməyini istəyirlər. Bu tələblərin ən böyük nəticəsi kimi NASA-ın yerin mühafızəsi ilə bağlı layihəsinin büdcəsinin 40 faiz aşağı salınmasını misal göstərmək olar. Bütün bu faktlar bir daha Buş hökumətinə və onun qərarlarına böyük neft şirkətlərinin təsirini əks etdirir. Məhz böyük şirkətlər və Buş hökuməti nümayəndələrinin birgə görüşləri nəticəsində ABŞ yeni enerji siyasətinin tərkib hissəsi olaraq İraqa hücum etmək qərarına gəlir. Ona da nəzər yetirmək lazimdir ki, İraq işğal edilərkən ilk növbədə ələ keçirilən strateji obyektlərdən biri İraqın enerji nazirliyi idi (The İraq war, James Defronzo, 2010:132). İraq müharibəsində ABŞ rəsmən qalib gəldiyini elan etsə də, hərbi birləşmələr İraqda qalmağa davam etmiş, bir sıra strateji qurumların o cümlədən, neftayırma zavodları, neft quyuları və neft kəmərlərinin mühafızəsi ilə məşğul olmuşlar. Sözsüz ki, burada ABŞ hökumətinin əsas hədəfı ölkədəki təhlükəsiz enerji mühitini təmin etməklə iri neft şirkətlərinin investisiya qoymağa cəlb etmək idi(Hopes and Respects, Noam Chomsky, 2010:145). 2012-ci ildə ABŞ ordusu rəsmən İraqdan çıxsa da, ABŞ-ın neft şirkətləri, o cümlədən Böyük Britaniya şirkətləri BP və Royal Dutch Shell hələ də İraqda fəaliyyət göstərməkdədirlər.

ABŞ xarici siyasətinə təsir göstərən digər böyük faktor isə yəhudi lobbisidir. İsrail yaranandan etibarən ABŞ-in bu ölkəyə dəstək göstərməsində yəhudi lobbisinin böyük rolu olub. Yəhudi lobbisinin fəaliyyətinin nəticələrini ABŞ-İsrail münasibətlərinə nəzərə saldıqda açıq aşkar görərik. Təkcə bir fakta diqqət yetirmək kifayətdir ki, 1967-ci il müharibəsindən sonra ABŞ İsrailə olan maliyyə dəstəyini 400 faiz artırmış və artıq 1974-cü ildə İsrail ABŞ-ın yardım ayırdığı ölkələr sırasında birinci yerə yüksəlmişdi. ABŞ-ın İsraili dəstəkləməsində daha çox iki faktor qabardılır. Birincisi strateji maraqlar, ikincisi isə hər iki ölkənin bölüşdüyü liberal demokratik dəyərlər. İsraili ABŞ-ın strateji müttəfiqi kimi görənlər hələ soyuq müharibə dövründən İsrailin və ABŞ-ın əvvəlcə kommunizmə, daha sonra radikal islamizmə qarşı ümumi maraqlara sahib olmasına, İsrailin Suriya, Misir və İraq kimi ABŞ düşməni olan ölkələrə qarşı sərt mövqe sərgiləməsinə nəzər yetirmişlər. Bu fikrin tərəfdarları İsrailə dəstəyin ABŞ-ın milli maraqlarına xidmət etdiyini müdafiə etmişlər. Bu mövqeni bir sıra realistlər, o cümlədən tanınmış neorealist nəzəriyyəçi Con Merşaymer tənqid etmişdir. Onun fıkrincə İsrailə dəstək nəinki ABŞ-ın regiondakı nüfuzunu artırmış, əksinə Fələstin-İsrail münaqişəsi fonunda digər ərəb ölkələrinin ABŞ siyasətinə kəskin etirazı ilə nəticələnmişdir.

Liberal demokratların dəyərlərin ümumiliyindən danışanda isə bir neçə fakta nəzər yetirmək lazımdır: 1. İsrail bu gündə yəhudi olmayanları vətəndaşlığa qəbul etmir. 2 İsraildə bu gün də dövlət konstitusiyası və ya hüquqlar haqqında bəyannamə qəbul edilməyib. 3. İsraildə ölkə mətbuatına əhəmiyyətli dərəcədə təsir göstərən elektron və kağız nəşrlər üzərində senzura mövcuddur.

Bəhs olunan hər iki nəzəriyyənin özünü doğrultmaması bir daha onun göstəricisidir ki, ABŞ İsrail siyasətində başlıca faktor nə strateji maraqlar, nə də liberal dəyərlərdir. Bu faktorun adı İsrail lobbisidir.

Hələ Səddam Hüseyn yenicə hakimiyyətə gələndə İsrail İraqı öz maraqlarına təhlükə olaraq görməyə başladı. Səddam Hüseynin ərəb dünyasında liderlik ambisiyaları İsrail dövlətinin nəzərindən yan keçə bilməzdi. İraqın Yom Kippur müharibəsində Suriya və Misirə dəstək olması İsrail-İraq münasibətlərini daha da gərginləşdirmişdi. Bu gərginliyin təzahürü kimi ötən əsrin 80- ci illərində Fransanın dəstəyi ilə İraqda tikilməyə başlanan Osirek şəhərindəki nüvə reaktoru stansiyası İsrail tərəfindən raket zərbələri ilə məhv edilmişdi. Məhz bu və digər səbəblərdən ABŞ-ın İraqı işğal etməsini istəyən başlıca ölkələrdən biri məhz İsrail idi. ABŞ rəhbərliyində bu müharibənin baş verməsini istəyən qüvvələrə nəzər yetirdikdə də isə ilk növbədə Pol Volfoviç barəsində danışmaq lazımdır. İraq müharibə ərəfəsində ABŞ müdafiə naziri Donald Ramsfeldin müavini olan Pol Volfoviç yəhudi əsilli polşalı immiqrantın ailəsində dünyaya gəlib. Müxtəlif yəhudi qurumları ilə əlaqədə olan Pol Volfoviç prezident Buşun İraq siyasətinin başlıca memarı hesab olunur. O ABŞ-İsrail əlaqələrinə verdiyi töhfəyə görə Milli Təhlükəsizlik Məsələləri üzrə Yəhudi İnstitutunun mükafatını qazanmış və Jerusalem Post qəzeti tərəfindən ilin adamı seçilmişdi. Digər yüksək səviyyəli məmurlar o cümlədən siyasi şuranın üzvü Riçard Perl və Duqlas Fit Milli Təhlükəsizlik Məsələləri üzrə Yəhudi İnstitutu (Jewish İnstitute for National Security Affairs) adlı yəhudi qurumu ilə sıx əlaqəlidirlər. Həm Pol Volfoviç, həm də Riçard Perl ABŞ hökumətinin İsrailə qarşı siyasətinin müəyyən olunmasında əhəmiyyətli rol oynamış, hökumətin Ariel Şaron vo Likud partiyasını dəstəkləməsində önəmli yer tutmuşlar.

İraq müharibəsində yəhudi lobbisinin rolundan danışarkən ilk növbədə yəhudi lobbi təşkilati olan Amerika İsrail İctimai Əlaqələr Komitəsi (American İsrael Public / MTairs Committe)-nin fəaliyyətinə nəzər yetirmək lazımdır. AİPAC-ın İraq müharibəsindəki rolu mübahisəli olsa da, bir sıra mənbələr bu faktın gerçəkliyinə dəlalət edir. 1963-cü ildə yaranan bu təşkilatın əsas məqsədi ABŞ konqresi və icraedici aparatında İsrail dövlətinin maraqlarını lobbiçilik etməkdir.

Hal-hazırda 100 minə yaxın üzvü olan bu qurum statistik məlumatlara görə ABŞ siyasətinə təsir etmək üçün indiyə qədər 3 milyard dollardan çox vəsait xərcləmişdir. Qurum həmişə ABŞ-ın Yaxın Şərq siyasətinin İsrail maraqları-

na uyğun olması istiqamətində fəaliyyət göstərmişdir. Bu qurumun ABŞ rəsmi dairələrindəki nüfuzunun bariz nümunəsi kimi Lourense Franklin qalmaqalını göstərmək olar. Belə ki, 2003-cü ildə Pentaqonun İraq siyasəti alt qrupunda çalışan Lourense Franklin iki AİPAC nümayəndəsi ilə görüşərək onlara ABŞ-ın İraq siyasəti ilə bağlı məxfi sənədləri ötürmüşdü. Bu hadisə aşkarlandıqdan sonra həbs olunan Franklin 2009-ei ildə məhkəmənin qərarı ilə məxfi məlumatlar İsrail yönümlü lobbi qrupuna ötürməsi səbəbilə 12 il 7 aylığına azadlıqdan məhrum edilmişdi. Hələ 2003-ci ildə siyasi yığıncağında AİPAC İraq müharibəsini dəstəkləməyi özünə əsas siyasi hədəf olaraq seçmişdi. AİPAC-m keçmiş rəhbəri Hovard Kor 2003-cü ilin yanvarında New-York Suns qəzetinə olan müsahibəsində qeyd edirdi: “Bizim ötən ilki uğurlarımız arasında ABŞ konqresindəki lobbiçilik fəaliyyətimiz oldu ki, bu fəaliyyət nəticəsində konqres ABŞ hökumətinə İraqa qoşun yeritməyi icazə verən qətnaməni qəbul etdi. Bunu eyni zamanda AİPAC keçmiş siyasi məsələlər üzrə rəhbəri Stiven Rozen də etiraf etmişdi. AİPAC-ın İraq məsələsində lobbiçiliyi tək bununla bitmir. 2003-cü ilin payızında İraq müharibəsi üçün əlavə maddi yardım arayan ABŞ hökuməti demokratların sərt etirazı ilə üzləşmiş və bu səbəbdən AİPAC-dan demokratların yardımı təsdiqləməsi üçün lobbiçilik etməyi istəmişdi. Bu qurumun digər başlıca uğurları arasında onu göstərmək olar ki, 2009-ci ildə məhz bu qurumun lobbiçilik fəaliyyət nəticəsində konqresin nümayəndələr palatasında BMT-in Goldstoun hesabatı pislənmişdir. Qeyd edək ki, bu hesabat İsrail tərəfindən Fələstində insan haqlarının pozulmasını özündə ehtiva edirdi.

**Ədəbiyyat**


1. AcharyaAmitav&Hiro Katsumata, Beyond Iraq, The Future of World Order, 2011.
2. Chomsky Noam, AchcharGilber, Perilious Power. The Middle East and US Foreign Policy, Dialoges on Terror, Democracy, War and Justice, 2007.
3. Chomsky Noam. Hopes and Prospects, 2010.
4. Chomsky Noam, Interventions, 2007.
5. DeFronzo James, The Iraq War, 2010.
6. Klare Michael, Blood and Oil, 2004.
7. http://repository.cmu.edu/cgi/viewcontent.cai?article=1211&context=hsshonors
8. https://wvvw.opensecrets.orji>/lobby/indusclient.php?id=E01&vear=2002
9. http://w\v\v.mintprcssne\vs.com/koch-industries-exxon-mobile-oil-^as-industrics-spend-141-million-lobbving-washington-for-more-war-pipelines-and-arctic-drilling/206565
10. http://www.greenpeace.orn-uk/MultimcdiaFiles/L.ive/FullReport/5543.pdf
11. http://lcaksourcc.intb/2013/04/08/contractors-reap-l38-hi11ion-from-iraq-war-cheneys-hal1iburton-1-\vith-39-5-bi11 ion/